Prof. Dr. Yaqub Mahmudov 80. Yıl Armağanı Özel Sayısı
ISSN:2148-2292
Akademik Tarih ve Düşünce Dergisi, 6(5) Kış 2019 ss. 274-287
Academic Journal of History and Idea, 6(5) Winter 2019 pp.274-287
Araştırma Makalesi
Original Article

# Səfəvi İmperiyası Ordusunun Quruluşu

**Rəna Nəcəfova***
**ORCİD:0000-0001-7710-8392**

**Xülasə**

Azərbaycan Səfəvilər dövlətinin yaranması və bu dövlətin tərkibində şimallı-cənublu bütün Vətən torpaqlarının birləşdirilməsi, bununla da vahid mərkəzləşdirilmiş Azərbaycan dövlətinin yaradılması orta əsrlər tariximizdə müstəsna əhəmiyyətə malik olan hadisələrindəndir. İstər Vətən, istərsə də xarici ölkələrin tarixşünaslığında Səfəvilər dövlətinin tarixi ilə bağlı bir çox araşdırmalar aparılmış, bir sıra qiymətli tədqiqat əsərləri yazılmışdır. Bu əsərlər əsasən Səfəvilərin tarixinin siyasi, iqtisadi, sosial, mədəni məsələlərini əhatə etməklə Vətən tarixinin öyrənilməmiş səhifələrinin işıqlandırılmasına öz töhfəsini vermişdir.Bununla belə, Səfəvilər dövlətinin tarixi ilə bağlı lazımınca araşdırılmamış və yaxud təhrif olunmuş bir çox məsələlər hələ də qalmaqdadır. Bir sıra monoqrafiya və məqalələrdə Səfəvilər dövlətinin hərb tarixi ilə bağlı qiymətli məlumatlara rast gəlinsə də,bu məsələyə dair xüsusi araşdırma mövcud deyildir. Odur ki, problemin araşdırılmasına böyük ehtiyac vardır. Bu tədqiqat Səfəvilər dövlətinin ordu quruculuğunun öyrənilməsi sahəsində mövcud boşluğu aradan qaldırmaq məqsədi daşıyır.Məqalədə ilk mənbələr əsasında Azərbaycan Səfəvi imperiyası ordusunun quruluşundan bəhs olunur, bu ordunun Şah I Abbasın hakimiyyəti illərində (1587-1629) öz dövrünün ən qüdrətli nizamlı ordusu səviyyəsinə yüksəldiyi əsaslandırılır. Məqalədə ilk dəfə olaraq Səfəvi ordusunun quruluşu barədə indiyədək lazımınca tədqiqata cəlb olunmamış mənbələr əsasında yeni və maraqlı faktlar verilir.

**Açar sözlər:** Səfəvi dövləti, Şah I Abbas, qulamlar

**Gönderme Tarihi: 30/11/2019** **Kabul Tarihi:26/12/2019**

* *Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanovadına Tarix İnstituunun fəlsəfə doktoru proqramı üzrə doktorantı ,kiçik elmi işçi, E-mail:rena286286@gmail.com*

© ATDD Tüm Hakları Saklıdır
CC BY

# Structure of The Safavid Empire Army

**Rena Necefova**

**Abstract**

The formation of the Safavid state of Azerbaijan and the unifying of the southern and northern provinces of our country are one of the exceptional events of our homeland in the Middle ages. Numerous investigations on the history of the Safavid state were conducted in the historiography of both the homeland and the foreign countries, and a number of voluable research works were written. These works mainly contributed to the coverage of the dark pages of the homeland, covering the political, economic, social and cultural issues of the Safavids.However, many issues that have not yet been studied or poorly studied about the Safavid rulers still remain. Although a number of monographs and articles contain voluable information. About the Safavidstate`s military history, there is no special investigation on this issul. So, there is a great need for a scientific investigation of the problem. These studies can contribute to the elimination of the current gapin the study of the Safavid state`s military construction.The article based on primary sources deals with the structure of the army of the Azerbaijani Safavi Empire, and grounds the fact of its transformation during the reign of Shah Abbas I (1587-1629) into the most powerful regular army of its time. In the article were given new and interesting facts on the sources of the Safavidarmy for the first time.

**Keywords:** Safavid state, Shah I Abbas,The ghulam

**Received Date: 30/11/2019** **Accepted Date: 26/12/2019**

# Структура Сефевидской Армии

ена Неджафова

**Резюме**

Создание государства Сефевидов и объединение воедино южных и северных областей нашей страны - одно из исключительных событий в истории нашей родины в период средневековья. Как в отечественной, так и зарубежной историографии осуществлено значительное количество исследований по истории государства Сефевидов, написан ряд ценных исследовательских работ. Эти работы, охватывающие в основном политические, экономические, социальные и культурные вопросы, внесли свой вклад в освещение малоизвестных страниц отечественной истории. Вместе с тем, некоторые вопросы по истории государства Сефевидов все еще остаются неизученными или малоизученными. Хотя в ряде монографий и статей содержится ценная информация о военной истории государства Сефевидов, но специальных исследований по данному вопросу не проводилось. Поэтому в научном исследовании данной проблемы ощущается острая необходимость. Данное исследование может способствовать устранению существующего пробела в области изучения военного строительства в государстве Сефевидов.В статье на основе первоисточников рассматривается вопрос об устройстве армии Азербайджанской Сефевидской империи, обосновывается факт её превращение в годы правления Шаха Аббаса I (1587-1629) в сильную регулярную армию своего времени.Впервые в статье представленье новые интересные факты об источникох армии Сефевидов.

**Ключевые слова:** Государство Сефевидов, Шах I Аббас, гуламы

**Получено: 30/11/2019** **Принято: 26/12/2019**

## *Akademik Yaqub Mahmudovun 80 İllik Yubileyinə*

**Giriş**

Səfəvi imperiyası ordusunun quruluşu Azərbaycan tarixinin lazımınca öyrənilməmiş məsələlərindən biridir.

Səfəvilərin dövlət idarəçiliyi mexanizmindən bəhs edən mənbələr içərisində Mirzə Rəfianın "Dəstur-ul Müluk"[1], Mirzə Səmianın "Təzkirat-ul Müluk"[2]və Mirzə Əli Nəqi Nasirinin "Əlqab və Məvacib-i Dövre-i Səlatin-i Səfəviyyə"[3]adlı əsərləri xüsusuilə diqqəti cəlb edir. Bu əsərlərdə Səfəvi imperiyasının quruluşu, ordu həyatı, orduda olan vəzifələr haqqında qiymətli məlumatlar vardır.

Səfəvi ordusunun əsasıSəfəvi imperiyasının banisi Şah I İsmayıl (1501-1524) tərəfindən qoyulmuş,get-gedə inkişaf etmiş və Şah I Abbasın (1587-1629)islahatları nəticəsində dövrün ən güclü ordularından birinə çevrilmişdir.

Səfəvi imperiyası (1501-1736)fasilələrlə qonşuları Osmanlı İmperiyası vəŞeybanilər dövləti ilə müharibələr aparmalı olmuşdur. Bundan əlavə,Səfəvi imperiyası özünün beynəlxalq dəniz ticarətini nizama salmaq üçün müstəmləkəçi Portuqaliya və İspaniya dövlətləri ilə də müharibələr aparmışdır. Dövrün bucür qüdrətli dövlətləri ilə müharibələr aparmaq və qalib gəlmək üçün güclü ordu yaratmaq zəruri idi.

Səfəvi şahları I Təhmasib və I Abbas ordu quruculuğuna çox böyük diqqət yetirmişlər. Məhz onların hakimiyyəti dövründə ordu quruculuğu dövlətin daxili və xarici siyasətində əsas məsələyə çevrilmiş, onun özəyini təşkil etmişdir. Onların hakimiyyəti dövründə Avropa ölkələri ilə danışıqlara göndərilən elçilərin qarşısında duran əsas vəzifə iqtisadi-ticarət əlaqələri olsa da,hərbi əməkdaşlığa nail olmaq başlıca vəzifə idi.

---

[1]Mirzə Rəfia, *Dəstur-ul Müluk,* təshih:Məhəmməd İsmail Marçinkofski,tərcümə: Əli Kürdəbadi, Tehran: Mərkəz-e İsnad və Tarix-i Diplumasi, 1385.

[2]Vladimir Minorsky, *Tadhkirat al-Muluk, A manual of Safavid adminstration* (circa1137/1725), London: Cambridge, 1980.

[3]Mirzə Əli Nəqi Nasiri, *Əlqab və Məvacib-e Dövre-e Səlatin-e Səfəviyyə*, təshih: Yusuf Rəhimli, Təbriz: İnteşarate Daneşqahe Firdovsi, 1371.

**Səfəvi İmperiyası Ordusunun Quruluşu**

Məlum olduğu kimi, Səfəvi ordusunun əsası Şah I İsmayıl dövründə qızılbaş tayfalarınınfəal iştirakı ilə qoyulmuş və Şah I Abbasın hakimiyyətidövründədövrün tələblərinəcavab verən100-150 minnəfərdən ibarət olan qüdrətli bir nizamlı orduya çevrilmişdir.

Şah I İsmayılın ordusunda hakim olan mənəvi nizam-intizamın əsası əslində şah ilə qızılbaşlar arasında olan müridlik və mürşidlik əlaqələrinə əsaslanırdı. Bütün ordu öz gənc şahını bir kamil mürşid kimi sevirdi. Belə ki, vuruşmalar zamanı döyüşçülər zirehsiz döyüş meydanına atılar, ucadan "Ya Şeyx, Ya Şeyx!"- deyərək qələbəyə can atardılar.[4]

Səfəvi dövlətinin inzibati ərazi bölgüsü və dövlətin siyası quruluşu ilə sıx bağlı olan Səfəvi ordusunun quruluşu, dövrün ən müasir ordularının strukturlarından demək olar ki,fərqlənmirdi.Mirzə Rəfianın "Dəstur-ul Müluk" əsərində göstərilir ki,Səfəvi imperiyasında mövcud olmuş 162 dövlət vəzifəsindən 24-ü ordu strukturuna aid idi.[5]Səfəvi ordusunu idarə edən dairələr əslində iki qola bölünürdülər. Birinci qol mərkəzdə Səfəvi şahı ilə birbaşa əlaqədə olan vəzirlərdən ibarət idi. Səfəvi ordusunun əsasını təşkil edən *qorçuların, qulamların, tüfəngçilərin və topçuların* başında duran və onları idarə edən *qorçu vəziri, qulamlar vəziri, tüfəngçilər vəziri* və *topçu vəziri* ilə bərabər çalışan *müstofilər* və onların *mirzələri*ordu ilə bağlı mühim xəbərləri şaha çatdırır və şahın fərmanlarını ordu başçılarına yetirirdilər.

Səfəvi ordusunun ikinci idarəetmə qolu orduda çalışan yüksək rütbəli əmirlərdən ibarət idi.Qeyd olunduğu kimi, ordu onun əsasını təşkil edən qorçular, qulamlar, tüfəngçilər, topçular, carçılar, bayraqdarlar və çalğıçıların sayından asılı olaraq müvafiq qruplara bölünürdü. Onlarıidarə edən ən yüksək rütbəli əmirlər qorçubaşı, qulamlarağası, tüfəngçibaşı və topçubaşı adlanırdı. Bukomandanlar həmçinin *"döyüş əmirləri və ya hərbi əyanlar" (üməra-yicəngi)* adlanırdılar.[6]

---

[4]Əbulqasim Tahiri, *Tarix-i Siyasi İctimai İran (Əz mərg-e Teymur ta mərg-e Şah Abbas),* London: İntişarate Franklin, 1349, 156.
[5]Rəfia, *Dəstur-ul Müluk,* 160-164.
[6]Minorsky, *Tadhkirat al-Muluk,* 44.

Türk araşdırmaçısı Ə. Ərdoğan Mirzə Əli Nəqi Nasirinin "Əlqab və Məvacib-e Dövre-e Səlatin-e Səfəviyyə" adlı kitabına əsaslanaraq "üməra-yi cəngi"nin 7 üzvi olduğunu yazır. Bunlar; Vəzir-i əzəm, Qorçubaşı, Sipəhsalar, Qulamlarağası, Eşikağasıbaşı, Tüfəngçibaşı və Məclisinevis idi.[7]

Səfəvi ordusunda qulluq edən minbaşılar, yüzbaşılar, onbaşılar və sıravi döyüşçülər ordunun əsasını təşkil edirdilər.

Səfəvi ordusunun şəxsi heyəti mərkəzdə saxlanılan daimi nizamlı ordudan və xanların əyalətlərdən və vilayətlərdən topladığı qeyri-daimidöyüşçülərdən ibarət idi. Döyüşçülərin atdan istifadə edib-etmədiyinə görə ordu hissələrisüvari və piyada dəstələrinə bölünürdü.

Əsası iki başlıca qrupdan, yəni daimi qoşundan (qızılbaşlar) və ehtiyat qoşunlarından ibarət olan Səfəvi ordusu Şah I Abbas dövründə müntəzəm olaraq təkmilləşdirilmiş və dövrün ən yeni odlu silahları ilə təchiz edilmişdi. Səfəvi ordusunda əsas hissələrdən əlavə hərbi xarakter daşıyan *"nəsəqçilər"*dəstələri də qulluq edirdi. Nəsəqçi dəstələrinin əsas vəzifəsi ordunun gedəcəyi yolu və ölkə yollarının təhlükəsizliyini qorumaqdan ibarət idi. Nəsəqçilər dəstəsi süvarilər dəstəsinin tabeliyində olan qorçulardan fərqlənirdi. Əsas fərq bunda idi ki, qorçubaşının tabeçiliyində olan qorçular məhz şahın ətrafında olmalı və onların əsas vəzifəsi şahı qorumaqdan ibarət idi.

Ordunun atlı dəstələri qulamlardan(mənşəcə qeyri-türklərdən ibarət olan döyüşçülər)və qorçulardan ibarət idi.

Qeyd etmək lazımdır ki, Səfəvi ordusunun əsasını təşkil edən qızılbaşlar əsasən 22, yaxud 34 tayfanın döyüşçülərindən toplanırdı.[8] Qızılbaş dəstələri müstəqil idarə olunurdu.Digər qrupların başında isə əmirlər vəbaşçılar dururdu. Şah I Abbas dövründə Səfəvi ordusunun topxana bölüyünün tərkibiayrı-ayrı alaylara bölünmüşdü. Bu bölükəsasən 500 topdan, *"əmələ"* adlanan (əməle-yi topxana) 4000 nəfər topçu döyüşçülərdən və onları idarə edən topçubaşından ibarət idi.

---

[7]Eralp Erdoğan, *Safevi Devletinin Askeri Teşkilatı,* İstanbul: Yeditepe Yayınevi, 2019, 117-118.
[8]Rocer Seyvori*, İran Əsre Səfəviyyə,* tərcümə: Kambiz Əzizi, Tehran: İnteşarate Səhər, 1347, 78.

İlk mənbələrdə Səfəvi ordusunun sayı haqqında müxtəlif məlumatlar vardır. Bəzi Səfəvi şahlarının dövründə ordunun 120.000 nəfərə çatdığı qeyd edilir.[9]

Y. Mahmudov "Odlar yurduna Səyahət" adlı əsərində bele yazır: "Tektander Osmanlı qoşunlarını təqib edən Şah I Abbas hərbi qüvvələrinin 120.000 nəfər olduğunu qeyd edir".[10]

Səfəvi İmperiyasının bu möhtəşəm ordusuŞah I Abbasdan sonra müxtəlif səbəblərə görə zəifləmiş və nəhayət Şah Sultan Hüseyn dövründə əfqanlara məğlub olmuşdur. Lakin Səfəvilərdən sonra hakimiyyətə gələnNadir Şah Əfşar Səfəvi ordusunu yenidən bərpa etmiş, qüvvətli ordu halına salmış və ölkənin düşmənlərini məğlub edərək yeni, daha güclü Azərbaycan Əfşarlar imperiyasını yaratmışdır. Diqqəti çəkən məsələ bundan ibarətdir ki, mütəxəssislərin fikrincə Nadir Şah ordusunun strukturu Səfəvi ordusunun quruluşundan çox da fərqli olmayanstrukturamalik idi. Səbəb də bu idi ki, Nadir Şah ömrünü döyüşlərdə keçirmiş və ordunun strukturunda əsaslı dəyişiklik aparmağa imkantapmamışdı.[11]

Səfəvi ordusunun hərbi dəniz qüvvələri yox idi. Şah I Abbas portuqalları körfəz ərazilərindən çıxarmaq üçün ingilislərdən yardım almağa məcbur olmuşdu. Şahın xələfləri də körfəzin təhlükəsizliyini qorumaq üçün Hollandiya və Fransa dövlətlərindən yardım almışdılar. J. Şarden öz "Səfərnamə"sində yazır ki, "mənim bildiyimə görə şahın şimal və cənub dənizlərində bircə dənə də olsa gəmisi və əsgəri yoxdur. Mən şəxsən bu iki dənizin sahil boyu ərazilərini piyada gəzmişəm. 15-20 il olar ki, kazaklara qarşı bir dəniz alayı təşkil edilibdir.Lakin ona dəniz qüvvəsi adını vermək olmaz. Səbəb ondadır ki, kazakların təhlükəsi dəf ediləndən sonra balıqçılardan ibarət olan muzdlu şəxslər dağılışaraq hərə öz işi ilə məşğul olur".[12]

---

[9]Vəhid Baseri, *Müqayiseyi-Miyane-Niruhayi-Nizami Usmani və Səfəvi*, Tehran: Mimsalname-yi Tarix-i İran, 1391, 108-109.
[10]Yaqub Mahmudov, *Odlar Yurduna Səyahət,* Bakı: Gənclik, 1980, 60;Yaqub Mahmudlu, *Seçilmiş Əsərləri,* Bakı: Təhsil 2011, 2:73.
[11]http://aja.ir/Portal/Home. pdf (15. 06. 2019).
[12]Jan Şarden, *Səyahətname-yi Şarden,* tərcümə: Məhəmməd Abbas, Tehran: Şəhrivar, 1345, 8:222.

**Səfəvi Ordusunun Bayraqları**

Səfəvi ordusunun bayrağı haqqında müxtəlif mənbələrdə, o cümlədən Oruc Bəy Bayatın "Əlaqələr" və ya "Səfərnamə" əsərində, J. Şardenin "Səfərnamə"sində və Lokhartın məqaləsində məlumat verilmişdir.

OrucBəy Bayatın"Səfərnamə" əsəri İranda "İranlı Don Juan" adı ilə M. Rəcəbniya tərəfindən tərcümə və nəşr edilmişdir.Oruc Bəy Bayat yazır ki, "Səfəvi şahları müharibəyə gedəndəşahın atının qabağında bir böyük bayraq yüksəltməklə ümumiəhaliyə xəbərdarlıq edilirdi. Səfəvi ordusunun sayını orduda yüksələn bayraqların sayından təyin etmək mümkün idi. Hər bayraq min nəfər əsgərin olduğunu göstərirdi. Çox müharibələrdə yaxından iştirak etmişəm və 200-ə qədər yüksəlmiş hərbi bayrağın şahidi olmuşam".[13]

J.Şarden yazır ki, "Səfəvilərin hərbi bayrağı fransızlarınkı kimi üçbucaqlı və müxtəlif rənglərdə olmuş,bahalı parçalardan tikilmişdir. Piyadalarla atlıların bayrağı eyni olmuş və bayrağın üzərində aslan ilə günəş simvolu, yaxud da"Zülfiqar" adlanan Həzrət Əlinin qılıncının şəkili, *Şəhadəteyn* sözləri və ya"Quran-i Kərim"in ayələriyazılmışdır.

Səfəvi ordusunda ən önəmli vəzifələrdən biri də böyük bayrağı qoruyan şəxsin vəzifəsi idi,yəni"*ələmdarbaşı"*vəzifəsi idi".[14]

Səfəvi ordusunun hərbi çalğı alətləri və onları səsləndirən qrup da ordunun hərbi strukturuna daxil idi. Orduda səsləndirilən təbillər, sinclər, zurnalar, gərənaylar və başqa musiqi alətləri özünəməxsus əhəmiyyətə malik idi. Müharibə zamanı musiqi alətlərinin səsləri ucalır,döyüşçülərin hay-harayları cəza günün mərasimlərini xatırladırdı. Bu səslər, yeri-göyü lərzəyə salırdı.[15]

---

[13]Oruc Bəy Bayat, *Don Juan İrani,* tərcümə: Məsud Rəcəbniya, Tehran: Bonqah-e Tərcüme Və Nəşre Kitab, 1338, 73-74; T Nəcəfli, *Səfəvi dövlətinin bayraqları,*https://az.wikipedia. org/wiki/ Səfəvilər_ dövlətinin_ bayraqları, 2017, 12, (06. 01. 2019).

[14]Xanbaba Bəyani, *Tarix-i nizam-i İran (Cənghayi-Dovre Səfəviyyə),* Tehran: İntişarate Sitade Bozorge Erteşaran, 1335, 150.

[15]İngilbert Kempfer, *Dərbari-Şahe-Şahane-İran,* tərcümə: Keykavus Cahandari, Tehran: Nəşre İntişarate Əncumənе Asare Milli, 1350, 94; İsgəndər Bəy Münşi, *Dünyanı Bəzəyən Abbasın Tarixi,* çev. Şahin Fərzəliyev, Bakı: Şərq-Qərb, 2010, 2:1346.

**Səfəvi Ordusunun Xərcləri**

Səfəvi dövlətinin xəzinəsi, ordunun təminatı və xərclərin mənbələri haqqında rəsmi məlumat olduqca azdır. Venesiya elçisi De Alessandrinin verdiyi məlumatlar da kifayət qədər deyil. Sonralar J.Şardenin,T. Herbertin və A.Olearinin əsərlərində bir sıra məlumatlara rast gəlinir. Yeri gəlmişkən, orduda mühasibat və təminat məsələləri Şah I İsmayıl vəŞah I Təhmasib dövründə formalaşmışdır.

De Alessandri nəql edir ki, "Şah I Təhmasibin xəzinə xərcləri çox az idi. Şah təkcə ən çevik və igid döyüşçülədən təşkil olunmuş 5.000 nəfərdən ibarət qorçulara məvacib verirdi. Həmçinin,döyüşçü məvacibdən əlavə at və geyimlə də təmin edilirdi. Təxminən 50 nəfərdən ibarət olan və hər birinin tabeliyində 500-dən 3.000-ə qədər döyüşçü ilə ordu əmirlərinin gəliri onlara verilmiş torpaqlardan alınırdı. Ordu əmirləriöz gəlirlərindən döyüşçülərə də məvacib verir və ordu daima döyüşəhazır vəziyyətdə saxlanılırdı. Şahdöyüşə hazırlaşarkənbir-iki ay öncədən çapar göndərərək ordunun toplanacaq yerini bəyan edirdi. Şah I Təhmasibin ordusunun sayı təxminən 60.000 nəfərəbərabər idi".[16]

Güman edilir ki, De Alessandri Şah I Təhmasibin ordu əmirlərinin sayını həqiqətdə olduğundan az qeyd etmişdir. Çünki başqa mənbədə, yəni şahın divan dəftərlərində 114 əmirin adı yazılmışdır. Həmçinin İskəndər Bəy Münşi şahın əmirlərinin sayını 72 nəfər olduğunu qeyd edir.[17]

Ümumiyyətlə bütün Səfəvi şahları dövründə ordunun təminatı iki mənbədən təmin edilirdi. Birincisi-şah tərəfindən, ikincisi-alınan vergilərdən. R.Bernin yazdığına görə döyüşçülər, yerli əmirlərin təsiri altına düşməsinlər və mərkəzi hakimiyyətə qarşı təhlükə yaranmasın deyə vəzirlər əsgərlərin məvacibini şahın xalisə torpaqlarından əldə olunan gəlirlərin hesabına ödəyirdilər. [18] Səfəvi ordusunda olan dörd ordu komandanının məvaciblərindən əlavə tiyul torpaqlarından da gəlirləri olmuşdur.

Səfəvi ordusunda qorçubaşı, qulamlarağası, tüfəngçibaşı və topçubaşıları 500-700 tümən, şahın vəzirləri 50-100 tümən, onların müstofiləri 30-50 tümən, qorçu,

---

[16]Anonim, *Səfərname-ye Veniziyanha-ye dər İran,* tərcümə: Məniçöhr Amiri, Tehran: Şerkəte Səhame-ye İnteşarate Xarəzmi, 1349, 227.
[17]Bəyani, *Tarix-i nizam-i İran,* 154.
[18]Baseri, *Müqayiseyi-Miyane-Niruhayi-Nizami Usmani və Səfəvi,* 149.

qulam, tüfəngçi və topçu dəstələrinin döyüşçüləri isə 15 tümən civarında məvacib almışlar.[19]

Səfəvi ordusunun məvacibinin digər hissəsi dövlət tərəfindən toplanmış ümumi vergidən ödənilirdi. Əyalət əmirlərinin iqtisadi vəziyyəti yaxşı olduğuna görə onlar dövlət torpaqlarından toplanmış vergilərin bir hissəsini özlərinə götürdükdən sonradigər hissəsini dövlət işçilərinin məvacibini ödəmək üçün mərkəzə göndərərdilər.

Səfəvi ordusunun idarəçilik işləri ordunun idarəçilik dəftərxanasına bağlı idi. Hakimlərin bütün xüsusi sənədləri dəftərxanaya təhvil verilərdi. Bu idarədə əmirlərdən döyüşçülərəqədər bütün ordu üzvlərinin kimliyi və lazimi məlumatlar qeydə alınırdı. İdarənin rəisi *"ali ləşkərnevis"*adlanırdı və şahın qulluğunda olan bütün adamların siyahısı onun dəftərlərində yazılırdı. Şarden və Kempfer ləşkərnevisin vəzifəsini "divanın üçüncü şöbəsi" adlandırırlar.[20]

---

[19]Minorsky, *Tadhkirat al-Muluk*, 86-92.
[20]İsgəndər Bəy Münşi, *Dünyanı Bəzəyən Abbasın Tarixi,* 2:2051.

## Nəticə

Azərbaycan Səfəvilər dövlətində odlu silahlardan dövlətin yarandığı ilk gündən istifadə olunmuşdur. Dövlətin formalaşmış nizamlı ordusu vardı. Orduya Türk Qızılbaş əyanları başçılıq etmiş və 1510-cu ildə Mərv döyüşündən sonra Azərbaycan Səfəvilər dövləti imperiyaya çevrilmişdir.Şah I Abbasın ordu sistemində həyata keçirdiyi islahatlar güclü nizami ordunun yaradılmasına, ən müasir odlu silahların əldə edilməsinə və istehsalına, itrilmiş ərazilərin geri qaytarılmasına şərait yaratdı.Beləliklə, öz dövründə dünyanın ən qüdrətli imperiyalarından biri olan Azərbaycan Səfəvi imperiyası, xüsusilə Şah I Abbasın hakimiyyəti illərində öz zamanının ən güclü və mükəmməl surətdə silahlanmış nizamlı ordusunu yaratmış və imperiyanın ən qüdrətli düşmənlərini məğlub etməyi bacarmışdır.

Ek1.




*Cədvəl: Səfəvi İmperiyası Ordusunun Quruluşu*

**Mənbə və Ədəbiyyat**

ANONİM, *Səfərname-ye Veniziyanha-ye dər İran*, tərcümə: Məniçöhr Amiri, Tehran: Şerkəte Səhame-yi İntişarate Xarəzmi, 1349.

BASERİ, V., *Müqayiseyi-Miyane-Niruhayi-Nizami Osmani və Səfəvi*, Tehran: Mimsalname-yi Tarix-i İran, 1391.

BAYAT, O., *Don Juan İrani,* tərcümə: Məsud Rəcəbniya, Tehran: Bonqah-e Tərcüme Və Nəşre Kitab, 1338.

BƏYANİ, X., *Tarix-i nizam-i İran (Cənghayi-Dovre Səfəviyyə)*, Tehran: İntişarate Sitade Bozorge Erteşaran, 1335.

ERDOĞAN, E., *Safevi devletinin Askeri Teşkilatı*, İstanbul: Yeditepe Yayınevi, 2019.

KEMPFER, İ., *Dərbari-Şahe-Şahane İran*, tərcümə: Keykavus Cahandari, Tehran: Nəşre İntişarate Əncuməne Asare Milli, 1350.

MAHMUDLU, Y., *Seçilmiş Əsərləri*, 2. cild. Bakı: Təhsil, 2011.

MAHMUDOV, Y., *Odlar Yurduna Səyahət*, Bakı: Gənclik, 1980.

MİNORSKY, V., *Tadhkirat al-Muluk, A manual of Safavid adminstration* (circa1137/1725), London: Cambridge, 1980.

MÜNŞİ, İ. B., *Dünyanı Bəzəyən Abbasın Tarixi*, çev. Şahin Fərzəliyev, 2:2. Bakı: Şərq-Qərb, 2010.

NASİRİ, Ə. N., *Əlqab və Məvacib-e Dövre-e Səlatin-e Səfəviyyə*, təshih: Yusuf Rəhimli, Təbriz: İntişarate Daneşqahe Firdovsi, 1371.

NƏCƏFLİ, T., *Səfəvi dövlətinin bayraqları*,https://az.wikipedia. org/wiki/ Səfəvilər_dövlətinin_ bayraqları, 2017, (06. 01. 2019).

RƏFİA, M., *Dəstur-ul Müluk*, təshih: Məhəmməd İsmail Marçinkofski, tərcümə: Əli Kürdəbadi, Tehran: Mərkəz-e İsnad Və Tarix-i Diplomasi 1385.

SEYVORİ, R., *İran Əsre Səfəviyyə*, tərcümə: Kambiz Əzizi K, Tehran: İntişarate Səhər, 1347.

ŞARDEN, J., *Səyahətname-yi Şarden*, tərcümə: Məhəmməd Abbas, 8. cild. Tehran: Şəhrivar, 1345.

TAHİRİ, Ə., *Tarixi- Siyasi İctimai İran (Əz mərg-e Teymur ta mərg-e Şah Abbas)*, London: İntişarate Franklin, 1349.

http://aja.ir/Portal/Home.pdf (15. 06, 2019).